


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 182 (24.319)

*4 oktyabr 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti sentyabr ayı ərzində bir sıra qərarlar qəbul edib. Belə ki, Nazirlər Kabinetinin 2023-cü il 1 sentyabr tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" Nazirlər Kabinetinin 2011-ci il 25 avqust tarixli Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə görə Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, hüquq-mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla) mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi müəyyən edilmişdir.

Nazirlər Kabinetinin 2023-cü il 14 sentyabr tarixli Qərarı ilə "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında", "Ehtiyata və ya istefaya buraxılmış vətəndaşların bəzi kateqoriyalarına müvəqqəti mənzil kirayəsi xərclərinin məbləğinin və ödənilməsi qaydasının müəyyən edilməsi barədə", "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi uçotunun aparılması Qaydası"nın təsdiq edilməsi haqqında", "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən pensiya təyin edilməsi üçün hərbi qulluqçunun və ya vəfat etmiş hərbi qulluqçunun ailə üzvlərinin müraciət etdiyi vaxt təminat xərcliyinin hesablandığı hərbi xidmət vəzifəsi mövcud olmadıqda hərbi qulluqçuların vəzifələrinin mövcud hərbi xidmət vəzifələrinə uyğunlaşdırılması Siyahısı"nın təsdiq edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasında yaşayan Azərbaycan Respublikası vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırışı üzrə Mərkəzi Çağırış Komissiyasının tərkibi"nin təsdiq edilməsi haqqında" qərarları ləğv edilmişdir.

Nazirlər Kabinetinin 2023-cü il 15 sentyabr tarixli Qərarı ilə "Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2009-cu il 20 aprel tarixli, "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2009-cu il 13 oktyabr tarixli, "İdman mərc oyunlarının həyata keçirilməsi məqsədilə hüquqi şəxsin akkreditasiya olunması Qaydası"nın və "İdman mərc oyunlarının təşkili və keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2011-ci il 24 avqust tarixli qərarlarında dəyişiklik edilərək "kütləvi informasiya vasitələri" sözləri "media" sözləri ilə əvəz edilmişdir.

Nazirlər Kabinetinin 2023-cü il 18 sentyabr tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə Qaydası"nda dəyişiklik edilmişdir. Dəyişikliyə görə sığorta vəsaiti Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi xəzinə hesabında toplanılır və Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun xüsusi bank hesabına köçürülür.

Həmçinin "Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində 2023-cü il 20 sentyabr tarixində Sərəncam imzalanmışdır. Adıçəkilən Sərəncama görə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Geologiya və Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Nazirliyin Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin balansında olan əmlakın müvafiq olaraq Agentliyin balansına verilməsi üçün aidiyyəti dövlət orqanlarının nümayəndələrindən ibarət komissiya yaradılmasını və təhvil-təslim prosesinin qanunvericiliyə uyğun aparılmasını təmin edəcəkdir.

Nazirlər Kabinetinin 2023-cü il 25 sentyabr tarixli Qərarı ilə "Lisenziya blanklarının və əlavələrinin hazırlanmasına sifarişin verilməsi, onların bölgüsünün həyata keçirilməsi, blanklardan istifadənin uçotunun və hesabatının aparılması Qaydası"nın və lisenziya, ümumi lisenziya, xüsusi lisenziya blanklarının və əlavələrinin formalarının təsdiq edilməsi haqqında" Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən Sellülar (mobil) rabitə xidmətlərinə (texnoloji standartın adı göstərilməklə) lisenziya" blankının formasının adında "rabitə" sözü "telekommunikasiya" sözü ilə əvəz edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Fərmanının icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 2023-cü il 26 sentyabr tarixli "Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı"nın təsdiq edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında", "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasında yeyinti məhsullarına verilən uyğunluq sertifikatının və baytarlıq şəhadətnaməsinin formasının və uyğunluq sertifikatının və baytarlıq şəhadətnaməsinin verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" və digər bir sıra Qərar və sərəncamlar ləğv edilmişdir.

Eyni zamanda Nazirlər Kabinetinin eyni tarixli digər Qərarı ilə "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə dəyişiklik edilərək "kütləvi informasiya vasitələrinin" sözləri "media" sözü ilə əvəz edilmişdir.

"Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Fərmanının icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində 2023-cü il 26 sentyabr tarixində Sərəncam imzalanmışdır. Adıçəkilən Sərəncama görə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi-Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırılmaqla, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin hüquqi aktlarının Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə təqdim edəcək.

***Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Qalib ordumuzun Qarabağda apardığı lokal antiterror tədbirlərinin qısa müddətdə, cəmi 23 saat ərzində başa çatdırılması müstəqil dövlətimizin suverenliyinin tam olaraq təmin edilməsi ilə nəticələnmişdir. Çoxəsrlik Azərbaycan tarixinin təkrarolunmaz qəhrəmanlıq nümunəsi olan 44 günlük Vətən müharibəsində Böyük Zəfərin qazanılması və 20 sentyabr 2023-cü il tarixdə Qarabağda separatçı qüvvələrin tərk-silah edilərək dövlət suverenliyimizin tam təmin edilməsi Ali Baş Komandan cənab İlham Əliyevin xalqımız və müstəqil dövlətimiz qarşısında müstəsna xidmətidir. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvanda mətbuata Bəyanatında səsləndirilmiş Qarabağda keçirilən lokal antiterror tədbirlərinin*** *"son dərəcədə qısa müddətdə, mülki şəxslərin hüquqlarına yüksək həssaslıq göstərilərək uğurla başa çatdırılması bizim üçün qürur mənbəyi olmuşdur"* ***kimi ürəkdən gələn səmimi sözləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xidmətlərinin sözün böyük mənasında milli iftixar nümunəsi olduğunu nümayiş etdirir. Bu mənada, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqımıza ünvanladığı müraciət ölkəmizdə və regionda baş vermiş reallıqların siyasi cəhətdən qiymətləndirilməsi, ümummilli iftixar duyğusunun parlaq ifadəsi və gələcəyə doğru çağırışların bəyanatıdır.***



## Dövlətlərarası münasibətlərdə yeni tarixi mərhələ: *reallıqlar və çağırışlar*

Qarabağda qazanılmış tam Qələbə ilə Ermənistanın uydurma "böyük Ermənistan" xülyasına birdəfəlik son qoyulmuş, "Arsax" adlandırılan qondarma qurum süquta uğramış, ləğv edilmişdir. Eyni zamanda tarixi Qarabağ Zəfərinin əbədiyyətini müəyyən edən 20 sentyabr 2023-cü il qısa müddətli lokal antiterror tədbirləri ilə həm də dövlət suverenliyimiz bərpa olunmuş, həmçinin regionda və dünyada yeni bir tarixi mərhələyə yol açılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Naxçıvan Muxtar Respublikasına səfəri, burada apardıqları danışıqlar və imzalanan sənədlər ölkəmizdə tam suverenliyin təmin edilməsindən sonrakı arzu edilən yeni tarixi mərhələnin başlanması hadisəsinə çevrilmişdir. Dünya liderləri arasında xüsusi yeri olan Prezident cənab İlham Əliyevin və Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın Naxçıvanda keçirdikləri görüşlər, buradan verilmiş bəyanatlar və atılmış qətiyyətli addımlar Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının müasir inkişafına böyük təkan verməklə bərabər həm də geniş mənada beynəlxalq münasibətlərin, xarici iqtisadi əlaqələrin, ölkəmizin nəqliyyat-logistika siyasətinin hərtərəfli surətdə yeni hədəflərə doğru aparılmasına xidmət edir.

***Bu baxımdan mühüm tarixi əhəmiyyətə malik olan 25 sentyabr 2023-cü il Naxçıvan Zirvə görüşü Avrasiya miqyasında Azərbaycanın mövqelərinin daha da genişləndirilməsinə, regionla əlaqədar zəruri problemlərin uğurla həll edilməsinə meydan açan tarixi hadisədir.***

Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfəri *"Bir millət – iki dövlət"* olan qardaş ölkələrin əlaqələrinin inkişafında yeni və əhəmiyyətli səhifələrdən biri olmuşdur. Qarabağda qazanılan tam suverenliyin təmin edilməsindən sonra Azərbaycanın Naxçıvan bölgəsindən Türkiyəyə və oradan da dünyaya yeni enerji axını ilə əlaqədar məsələlərin gündəmə gətirilməsi, çoxdan haqqında söhbət gedən Bakı-Tbilisi-Qars dəmir yolunun Qars-İğdır-Naxçıvan qolunun çəkilməsinin rəsmiləşdirilməsi və muxtar respublikanın dünyaya çıxışına daha bir yol açılması ölkəmizdə yeni bir inkişafa start verilməsinin bəyanatı kimi səslənir.

Naxçıvan görüşünün əsas mövzularından olan Zəngəzur dəhlizi ilə əlaqədar məsələlərin də gündəmdə mühüm yer tutması artıq regionda ideyadan-əmələ doğru keçidin də böyük sürətlə irəli doğru getdiyini düşünməyə əsas verir. Bütün bunlar Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, Cənubi Qafqazda və Türkiyə ilə əlaqələrdə yeni bir tarixi mərhələnin başlanmasının qəti anonsunun verilməsi deməkdir. Naxçıvan Zirvə görüşündə, ümumiyyətlə, ölkəmizin inkişafı, dövlətlərarası münasibətlərin yeni mərhələyə çatdırılması üçün əhəmiyyətli olan rəsmi sənədlərin imzalanması bu tarixi görüşün beynəlxalq miqyasını diqqət mərkəzinə çatdırır. Bu cəhətdən Naxçıvan Zirvə görüşündə imzalanmış "Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında Türkiyə Respublikasının Qəhrəmanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi" və "Azərbaycan Respublikasında və Türkiyə Respublikasında bərpa olunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisinin ötürülməsi sahəsində Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi arasında Anlaşma Memorandumu" müstəqil dövlətimizin və beynəlxalq münasibətlərimizin daha da inkişaf etdirilməsi sahəsində qəbul edilmiş əhəmiyyətli qərarlardır.

Məlum olduğu kimi, dünyanın diqqət mərkəzində olan Zəngəzur dəhlizi məsələsi, əslində, XX əsrin əvvəllərində sovet Rusiyası ilə Ermənistanın Cənubi Qafqazda, xüsusən Naxçıvan regionunda məqsədli şəkildə yaratdığı

*Ardı 2-ci səhifədə*



problemdir. Rusiya bolşevik hökumətinin Azərbaycanın Türkiyə ilə əlaqələrini kəsmək, Naxçıvanı Azərbaycanın əsas hissəsindən ayırmaq və münasib şərait yarandığı təqdirdə bu diyarı Ermənistanın tərkibinə qatmaq üçün yaratdığı həmin problem Ermənistanın ərazi iddialarının məkrli şəkildə gerçəkləşdirə bildiyi ədalətsizliklərdən biridir. Azərbaycanın o zaman Rusiyadakı Fövqəladə səlahiyyətli nümayəndəsi olan Behbud ağa Şahtaxtinski 1920-ci ildə Vladimir Leninə yazdığı məktublarda rəsmi surətdə Zəngəzurun Ermənistana verilməsinə özünün etirazını bildirmiş və bunun Rusiyanın cənub-qərb sərhədlərində gərginlik yaradacağını sovet dövlətinin rəhbərlərinə çatdırmışdır. Buna baxmayaraq, ermənipərəst Rusiya bolşevik hakimiyyəti erməni daşnak qüvvələrinə dəstək verərək qədim Azərbaycan ərazisi olan Zəngəzuru işğal edib, zorla Ermənistanın tərkibinə qatmışlar. Bütün bunlar nəzərə alınmaqla, müasir şəraitdə Zəngəzur dəhlizi məsələsinin həlli prosesində Naxçıvan faktoru xüsusi yer tutur. Naxçıvanın Azərbaycanın əsas ərazisi ilə əlaqələrinin bərpa edilməsi, muxtar respublikanın blokadadan çıxarılması kimi zəruri problemlərin həllindən başqa Zəngəzur dəhlizinin açılması həm region dövlətləri olan Türkiyə, Rusiya, İranla, eyni zamanda Yaxın Şərq və Avropa ilə əlaqələrinin daha da intensivləşdirilməsində mühüm rol oynayır.

***Ona görə də Azərbaycan və Türkiyə liderlərinin Naxçıvan görüşü zamanı Zəngəzur dəhlizi məsələsinin gündəmdə olması, geniş mənada, həm regional, həm də qlobal problemlərin həll edilməsinin müzakirə olunması baxımından əhəmiyyətlidir. Zəngəzur dəhlizinə dair müzakirələrin vaxtilə süni şəkildə Azərbaycan üçün Zəngəzur probleminin yaradıldığı bir məkanda aparılması məsələnin həllinin daha optimal yollarını müəyyən etmək baxımından daha bir mühüm addım kimi qiymətləndirilə bilər.***

Bütün bunlara görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın 25 sentyabr 2023-cü il Naxçıvan Zirvəsindən səsləndirdikləri bəyanatlar Avrasiya və Cənubi Qafqaz, o cümlədən də Azərbaycan-Türkiyə və həm də İran və Ermənistan üçün də aktual və əhəmiyyətli məsələlərin tarixin yeni dövrünün diqqət mərkəzinə çəkilməsi baxımından mühüm ictimai-siyasi əhəmiyyətə malikdir.

Dövlət başçılarının Naxçıvan görüşünün əsas mövzularından biri olan Zəngəzur dəhlizinin açılması ilə bağlı məsələlərin müzakirə edilməsi Azərbaycan-Türkiyə müttəfiqliyinin dünya birliyinə böyük töhfə olacaq Orta Dəhlizin yaradılmasına kömək edəcəkdir. Beləliklə, Avropa ilə Asiyanı birləşdirən tarixi İpək Yolunun region və dünya ölkələri üçün daha sərfəli və əlverişli bir marşrutunun yaradılması təmin ediləcəkdir. Ona görə də tarixi əhəmiyyətə malik Naxçıvan görüşü mahiyyət etibarilə Azərbaycan Respublikasının strateji maraqlarına uğurla xidmət edən mühüm regional və beynəlxalq əhəmiyyətli platformadır.

Bütün bunlarla bərabər, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvan görüşü ölkəmizin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı və sosial-iqtisadi inkişafı üçün xüsusilə mühüm və əhəmiyyətli hadisədir. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın muxtar respublikaya səfəri, ilk növbədə, XX əsrin əvvəllərində erməni-bolşevik birləşmələrinin Qərbi Zəngəzuru işğal etməsi ilə Azərbaycanın əsas ərazisindən ayrı salınmış Naxçıvanın təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bununla qardaş Türkiyə 13 oktyabr 1921-ci il tarixdə imzalanmış Beynəlxalq Qars müqaviləsinin bu qədim Azərbaycan ərazisi ilə əlaqədar müddəalarının müasir dövrdə də qüvvədə olduğunu beynəlxalq ictimaiyyətin, xüsusilə Ermənistan Respublikası rəsmilərinin diqqətinə çatdırmışdır. Naxçıvan görüşləri vasitəsilə, nəticə etibarilə, 15 iyun 2021-ci il tarixdə imzalanmış Şuşa Müttəfiqlik Müqaviləsinin müddəaları ilə səsləşən bu tarixi missiya Naxçıvana ikinci bir dövlətin müdaxilə etməsinin beynəlxalq hüquq normaları və Türkiyə dövlətinin Qars müqaviləsi ilə müəyyənləşdirilmiş öhdəlikləri ilə bir araya sığmaması bir daha nəzərə çatdırılmışdır. Naxçıvan görüşü zamanı dövlət başçıları tərəfindən rəsmi şəkildə açılış mərasimi keçirilmiş Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin istifadəyə verilməsi də burada müdafiə və təhlükəsizlik problemlərinin daha intensiv şəkildə həll edilməsinə hesablanmış mühüm strateji addımdır.

Uzun illərdən bəri çətin blokada şəraitində yaşamağa məcbur edilmiş Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə əlaqədar məsələlərin həlli də Naxçıvan zirvəsinin ana xətlərini təşkil edir. Fikrimizcə, Naxçıvan görüşü zamanı diqqət mərkəzinə çəkilmiş problemlərin həlli məsələləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı “Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illər üzrə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nın həyata keçirilməsinin təmin edilməsinə istiqamətləndirilmişdir. İki müttəfiq dövlətin liderlərinin İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimində birgə iştirakı bu Dövlət Proqramının vaxtında və yüksək şəkildə icra edilməsinə xidmət edən mühüm əməli addımdır. Bu, hər şeydən əvvəl, Naxçıvan Muxtar Respublikası əhalisinin mavi yanacaqla təmin edilməsinə təminat verən çox səmərəli sosial layihədir. İkincisi, İğdır-Naxçıvan qaz kəmərinin çəkilməsi Dövlət Proqramında geniş yer tutan muxtar respublikanın sənayeləşdirilməsi sahəsində nəzərdə tutulan maddələrin yerinə yetirilməsi üçün də zəruri gedişdir. Bu cəhətdən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvandakı bəyanatında İğdır-Naxçıvan qaz kəmərinin “ikinci xətt” kimi qiymətləndirilməsi regionda sosial-iqtisadi sferada nəzərdə tutulan genişmiqyaslı yeniləşmələrin həyata keçirilməsi üçün zəruri səmərəli imkanların yaradılması deməkdir. Üçüncüsü, əlbəttə, Naxçıvana qardaş Türkiyə ərazisindən yeni qaz kəmərinin çəkilməsi muxtar respublikanın qaz təminatında bu vaxta qədər tətbiq olunan birxətli idxalın çətinliklərinin aradan qaldırılmasına da səbəb olacaqdır. Dördüncüsü, hesab edirik ki, İğdır və Naxçıvan arasında yeni qaz təsərrüfatı kompleksinin salınması Naxçıvan üçün olduğu kimi, qarşılıqlı surətdə Türkiyənin İğdır bölgəsinin daha da inkişaf etdirilməsinə də əhəmiyyətli dərəcədə müsbət təsir göstərəcəkdir. Bu isə, öz növbəsində, Ermənistan Respublikası və İran İslam Respublikası ilə həmsərhəd zonada yerləşən Naxçıvan və İğdır bölgələrinin mövqelərinin möhkəmləndirilməsi cəhətdən də əhəmiyyətlidir. Ən nəhayət, yeni qaz təchizatı layihəsi Naxçıvanda yeni iş yerlərinin açılması baxımından da əlverişli və əhəmiyyətlidir.

Naxçıvan Muxtar Respublikasının enerji təchizatı və təhlükəsizliyi məsələlərinin dövlət başçıları səviyyəsində gündəmə gətirilməsi bu istiqamətdə yeni və əlavə ehtiyat mənbələrinin aşkara çıxarılması və istifadəyə verilməsi problemlərinə də işıq salmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bəyanatında Naxçıvan Muxtar Respublikasındakı “yaşıl enerji” potensialı haqqında səsləndirilmiş aşağıdakı məsələlər bu regionda alternativ enerji mənbələri sahəsində həyata keçiriləcək tədbirlərin miqyasını və əhəmiyyətini daha əyani şəkildə təsəvvür etməyə imkan yaradır: ***“İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi ikinci xətt vasitəsilə Naxçıvana təbii qazın verilməsinə şərait yaradacaq.***

***...Naxçıvanın qazı, nefti olmasa da, günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan “yaşıl enerji” zonasına çevrilə bilər. Çünki burada həm günəş, həm külək, eyni zamanda su-elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində “yaşıl enerji” ixracı da mümkün olacaqdır”.***

Müstəqil Azərbaycan dövləti qardaş Türkiyə ilə birlikdə Naxçıvanın enerji potensialından tam istifadə olunması üçün əməli addımlar atmaqdadır. Prezident cənab İlham Əliyevin bəyanatında səslənən və artıq uğurla keçirilmiş Türkiyə-Azərbaycan III Enerji Forumunun Naxçıvanda təşkil edilməsi muxtar respublikanın “yaşıl enerji” sərvətlərindən istifadənin səmərəli yollarının müəyyən edilməsi üçün zəruri hazırlıq işlərinə başlanıldığından xəbər verir. Həqiqətən də, Naxçıvan 15 il ərzində işıqdan və qazdan böyük çətinliklər yaşasa da, hazırda burada enerji istehsalı baxımından mövcud olan böyük ehtiyat mənbələrinin işə salınması ilə nəinki muxtar respublikanın, ümumiyyətlə, ölkəmizin enerji potensialını daha da inkişaf etdirmək üçün mühüm nəticələr əldə etmək mümkün olacaqdır.

Məlum olduğu kimi, iqlimşünas coğrafiyaçı alimlərin qənaətinə əsasən Naxçıvan il ərzində günəşli günlərin sayına görə nəinki Azərbaycanda, ümumiyyətlə, regionda ilk yerlərdə durur. Bundan başqa, muxtar respublikanın bəzi yerlərində, xüsusilə Culfa rayonunda külək enerjisi baxımından əlverişli təbii şərait mövcuddur. Ərazidə bir sıra dağ çaylarının olması isə Naxçıvanda elektrik enerjisi ehtiyatını genişləndirməyə imkan yaradır. Bütün bunlar Prezident cənab İlham Əliyevin müəyyən etdiyi kimi, alternativ enerji mənbələri hesabına Naxçıvan Muxtar Respublikasında su, günəş və külək enerjisi sahələrində yeni enerji kompleksləri yaratmaq üçün tam əsas verir. “Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illər sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nda da bu regionda alternativ enerji stansiyalarının işə salınması maddələri özünə geniş yer tutmuşdur. Bu o deməkdir ki, ən yaxın gələcəkdə, konkret olaraq 2024-cü ildən etibarən Naxçıvanda artıq “yaşıl enerji” üzrə yeni enerji kompleksləri yaradılacaqdır. Bu isə muxtar respublikanın enerjiyə olan tələbatının tam ödənilməsi, yəni Naxçıvanın enerji təhlükəsizliyinin təmin edilməsinə münasib imkan yaratmaqla bərabər, muxtar respublikada sənayeləşmə proqramlarının uğurla reallaşdırılmasına və Dövlət Proqramında əsas yer tutan Azad İqtisadi Zonanın yaradılması ilə əlaqədar geniş infrastruktur layihələrinin həyata keçirilməsinə tam təminat verəcək. Bundan başqa, Naxçıvan Muxtar Respublikası qardaş Türkiyə Cümhuriyyətinin elektrik şəbəkəsinə qoşulmaqla ölkəmizin enerji ixrac edən regionuna çevriləcəkdir. Hazırda Avropa ölkələrində enerji sahəsində yaranmış kəskin qıtlığı və çatışmazlığı nəzərə alsaq, onda Naxçıvanın enerji ehtiyatlarının üzə çıxarılaraq Türkiyə vasitəsilə Avropaya ixrac olunmasının nə qədər böyük imkanlara malik olduğunu və ölkəmizin büdcəsinə əhəmiyyətli dərəcədə gəlir əlavə edə biləcəyini əyani surətdə təsəvvür etmək mümkündür. Yeri gəlmişkən, deyək ki, əgər sülh müqaviləsi imzalanarsa, Naxçıvan Muxtar Respublikasının enerji potensialından Ermənistan da əsaslı şəkildə faydalana bilər. Hətta tam qarşılıqlı anlaşmanın yarandığı təqdirdə, Naxçıvanda istehsal edilən enerji ehtiyatlarının Naxçıvan-İrəvan-Türkiyə, yaxud Naxçıvan-İrəvan-Tbilisi vasitəsilə Avropaya nəql edilməsi məsələlərinə baxılması da mümkündür.

Naxçıvan Zirvə görüşündə diqqət mərkəzində olan Bakı-Tbilisi-Qars Dəmir Yolunun Qars-İğdır-Sədərək-Naxçıvan qolunun çəkilməsinin reallaşdırılması həm regional və həm də qlobal əhəmiyyətə malik olan əhəmiyyətli məsələdir. Haqqında bir neçə il əvvəldən söhbət gedən, müəyyən zəruri hazırlıq işləri aparılan Qars-İğdır-Naxçıvan dəmir yolu xətti Çin xalq Respublikasından başlayaraq Avropaya qədər uzanan Bakı-Tbilisi-Qars Dəmir yolunun Asiyaya doğru şaxələndirilməsinə səbəb olacaqdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın 25 sentyabr 2023-cü il tarixdə Naxçıvanda imzaladıqları “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmiryol layihəsinə dair Niyyət Protokolu” hazırda dünya ölkələrinin xüsusi önəm verdiyi Orta Dəhliz probleminin daha əlverişli bir marşrutunun yaradılmasına start verən mühüm dövlət sənədi kimi xüsusi əhəmiyyətə malikdir. Məhz Qars-Naxçıvan dəmir yolunun çəkilməsi ilə Naxçıvan Orta Dəhlizin əsas tranzit qovşaqlarından biri kimi böyük sürətlə inkişaf edən bir diyara çevriləcəkdir. Bununla Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının ana maddəsi olan Naxçıvan Azad İqtisadi Zonasının salınması və inkişaf etdirilməsi üçün çox zəruri olan nəqliyyat-logistika problemi də həll edilmiş olacaqdır. Belə ki, Naxçıvan-Qars dəmir yolu Naxçıvan Azad İqtisadi Zonasını bir tərəfdən Türkiyə vasitəsilə Avropa ilə, digər tərəfdən isə İran Respublikasından keçməklə Asiya ölkələri ilə əlaqələndirəcəkdir. Həmçinin Qars-Naxçıvan dəmir yolunun Ermənistanın sosial-iqtisadi inkişafı ilə əlaqələndirilməsi də xüsusi əhəmiyyətə malik ola bilər. Bu Dəmir İpək Yolu marşrutunun Naxçıvan vasitəsilə Ermənistanla əlaqələndirilməsi özlərini bataqlığa salmış bu ölkəni blokada vəziyyətindən çıxarmaqla ora bütün sahələr üzrə yeni nəfəs gətirmək imkanlarına malikdir.

Azərbaycan-Türkiyə liderlərinin Naxçıvan Zirvə görüşü həm də muxtar respublikanın dünya ölkələrinin diqqət mərkəzinə çəkilməsi cəhətdən də xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Azərbaycan və Türkiyənin dövlət başçılarının və onları müşayiət edən nümayəndə heyətlərinin rəsmi şəkildə qarşılanması, təsdiq edilmiş tədbirlərin vaxtında və yüksək səviyyədə təşkil olunması, dövlət sənədlərinin imzalanma mərasimlərinə ev sahibliyi etməsi kimi məsuliyyətli və şərəfli imtahandan da uğurla çıxmışdır. Dövlət başçılarının Zirvə görüşü müasir Naxçıvanın dövlət əhəmiyyətli görüşlərin təşkil edilə biləcəyi, beynəlxalq səviyyəli elmi-mədəni forumların, tədbirlərin keçirilməsi imkanlarına malik olan bir şəhər kimi tanınması üçün də əhəmiyyətli hadisədir. Hesab edirik ki, rəsmi Naxçıvan görüşləri bu qədim diyarın turizm baxımından reklamı üçün də əlverişli şərait yaratmışdır.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bəyanatında haqlı olaraq qeyd edildiyi kimi, tarixi Naxçıvan Zirvə görüşü Azərbaycan-Türkiyə əlaqələrinin genişləndirilməsinə və daha da möhkəmləndirilməsinə yeni və geniş imkanlar yaradan ictimai-siyasi hadisə olaraq yaddaşlara yazılmışdır. Prezident cənab İlham Əliyevin bəyanatında diqqət mərkəzinə çəkilən aşağıdakı fikirlər Naxçıvan görüşünün Azərbaycan-Türkiyə münasibətlərinin dərin siyasi mənasını və əhəmiyyətini bütün yönləri ilə ümumiləşdirir: ***“Bütün bu tarixi layihələr bir daha onu göstərir ki, bizim dövlətlərimiz nə qədər bir-birlərinə bağlıdır, bir-birlərinə yaxındır. Biz bir-birimizə dəstək verməklə, eyni zamanda regional məsələləri də düz istiqamətdə yönləndiririk. Yəni bizim müştərək maraqlarımız ondan ibarətdir ki, bölgədə sülh olsun, əmin-amanlıq olsun, müharibələr olmasın, ölkələrin ərazi bütövlüyü təmin edilsin”.***

Azərbaycan və Türkiyə dövlət rəhbərlərinin Naxçıvan Zirvə görüşündən çıxarılan ən mühüm və ümumiləşdirilmiş nəticə məhz bundan ibarətdir. Vaxtilə Mustafa Kamal Atatürkün “türk qapısı” adlandırdığı Naxçıvan 25 sentyabr 2023-cü il Zirvə görüşündə iki qardaş dövlətin qüdrətli liderləri tərəfindən qəbul edilən qərarların işığında dünyaya açılan bir qapıya çevrilmək imkanları əldə etmişdir. Bütövlükdə, Naxçıvan görüşləri Azərbaycan dövlətinin hərbi-iqtisadi qüdrətinin, ərazi bütövlüyünün daha da möhkəmləndirilməsi, “Bir millət-iki dövlət” olan Azərbaycan və Türkiyə əlaqələrinin müasir inkişaf səviyyəsinə çatdırılması və Naxçıvan Muxtar Respublikasının inkişafında yeni reallıqlar mərhələsinin formalaşdırılması istiqamətlərində böyük addımların atılması ilə səciyyələnir. Naxçıvan Zirvə görüşünün mesajları ölkəmizin və ümumiyyətlə, regionun həyatında daha əhəmiyyətli və şərəfli günlərin başlanmasından xəbər verir. Son günlərdə Qarabağda baş verən hərbi-siyasi hadisələr, xüsusən buradakı qondarma cinayətkar qurumun buraxılması böyük bir müharibə ocağının tam söndürülməsi, vandal terrorçu qruplaşmanın təslim olması, separatçıların qaçaqaça düşməsi Ali Baş Komandanımız cənab İlham Əliyevin dünyada sülhə və təhlükəsizliyə verdiyi mühüm töhfədir. Xankəndidə mərkəzləşmiş xunta rejiminin acı məğlubiyyəti regionda haqqın və ədalətin təntənəsidir. Azərbaycanın suverenliyinin bərpa olunması müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə aparan dövlət və xalqlar üçün əsl nümunədir. Xüsusən sadə, günahsız erməni vətəndaşlarına ünvanlanmış ibrətamiz çağırışdır.

***Azərbaycan xalqı möhkəm surətdə inanır ki, ölkəmizin Prezidenti, Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyev böyük Zəfərlərə imza atmış müstəqil Azərbaycan dövlətini suverenliyimizin tam əldə olunmasından sonrakı yeni tarixi mərhələdə də böyük qətiyyətlə və uğurla parlaq gələcəyə doğru aparacaqdır.***

**İsa HƏBİBBƏYLİ**
***Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Milli Məclisin deputatı, akademik***

4 oktyabr Cəbrayıl Şəhəri Günüdür

# Tariximizdə “Böyük Qayıdış”ın simvolu Cəbrayıl



*Bu gün tarixin dolanbac künc-bucağında yadelli işğalçıların yağmalarına dözüb divlər sarayında nər igidlər böyütmüş, “Qız qalası”nın təpəsinə gözətçi qoyub, qoynunda Xudafərini bəsləmiş, aşıqların ulu babası Aşıq Qurbaninin, Aşıq Pərinin, Muğrum Kərimin, Aşıq Humayın, Aşıq Abdullanın Vətənidir Cəbrayıl. Özünü vətəndə vətənsiz insan kimi hiss etməyin ağrısıdır Cəbrayıl. Yoxluğunun ağrısında ürəyi qubar eləyən mərd oğulların bu hicrana dözməyib, 30 illik ayrılıqdan sonra başını almış qara buludları şimşək olub doğradı, öz canlarından can qoparıb torpağına yeni nəfəs, göyünə sonsuz mavilik qatdı.*

### Qədim Şərq mədəniyyətini qovuşduran tarixi məkan

Başdan-ayağa fəxarət, qürur, şərəf qoruyucuları ilə dolub-daşan bu diyar hər səhər Günəşin al şəfəqlərində öz gücünü qalxan edib Azərbaycanın qanayan yaralarını sağaldır, hər gecə səssizliyə bürünüb, qoynunda yatan yüzlərlə şəhidin qanı sayəsində nəfəs alır. Cəbrayıl! Neçə-neçə igidin ömür payını ömrünə qatan, neçə-neçə anaların göz yaşı axıtdığı, oğul deyə bağrına basdığı diyar! Nə çox dağ çəkildi bağrına, nə çox göz yaşı qurutdun torpağında... Sayı yox, hesabı yox. Araz çayı üzərində köksündən yaralanan Xudafərin 30 il diz çökmədən, qürurla hər gün yolunu gözlədi Azərbaycanının. Tağlarını hər gün Araz yudu, gün qurutdu, bağrı yansa da, bağrı çatlasa da, dözdü, dayandı. Sən daha da yara almayasan, sən daha da sınmayasan deyə, Fəridlər, Elçinlər, Şahinlər, Nicatlar, Anarlar bir-birinə sipər olub sənə tuşlanan gülləyə hədəf olub, öz qanları ilə sənin xəmirini yenidən yoğurdu. 33 Cəbrayıl igidi sənin son azadlıq çırpınışlarına qalxan olub taleyini sənin taleyinə bağlayaraq ölümsüzlüyə yol aldı.

Xudafərin! Afərin sənə, dayaq, afərin sənə aşılmaz körpü! İllərlə düşmənin murdar ayağı altında əzilmədən, qırılmadan, güclü qaldın! Cənub-şimal bütövlüyündə körpü oldun! Qəhrəman ayaqların gəlib-keçdiyi, qaçıb keçdiyi şahidlik rəmzi oldun. Oğulların qaçaraq sığındığı, can verdiyi liman oldun! Axan qanlarla torpağımıza bərkidildin. Ona görə səndən oxuyuruq tarix adlı türkün qan kitabını, səndən güc alaraq yazırıq zəfər dastanlarını, igidlik salnamələrini...

Cəbrayıl Kür-Araz və Qədim Şərq mədəniyyətinin qovuşduğu tarixi məkandır. Bunu Cəbrayıl bağrına basdığı mağaralar, siklop tikililəri, daş üzərində müxtəlif naxışlar, qədim yaşayış yerləri, istehkam və qəbiristanlıq qalıqları ilə təsdiq edir.

Cəbrayıl rayonu Azərbaycanla İran sərhədində – Araz çayının sol sahilində yerləşir. Tarixi vərəqlədiyimiz zaman H.Qəzvini, A.Bakıxanov, Əhməd bəy Cavanşir, Mirzə Camal Cavanşir Qarabaği, Mirzə Adıgözəlbəy, Məhəmmədhəsən bəy Baharlı və Mirzə Həsən Əfəndinin əsərlərində bu torpaq haqqında sinədolusu məlumat verilir. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Qasım bəy Zakir və Cəlil Məmmədquluzadə də Cəbrayılın adət-ənənələri, mədəniyyəti ilə bağlı silinməz fikirlər söyləyib.

Deyilənlərə görə, Cəbrayıl tarixi şəxsiyyət olub, Ziyarət dağından Araz çayına qədər torpaqlar da onun övladlarına məxsus olub. Bu müqəddəs şəxs “Cəbrayıl ata” deyilən yerdə dəfn edilmişdir. Doğrudan da, Cəbrayıl kəndinin şimalında “Cəbrayıl ata” adlı məqbərə, Kordubaba dağında məzar və qədim yaşayış yerlərinin izləri indiyə qədər qalır. Qumlaq, Veysəlli, Alıkeyxalı və Şahvəlli kəndlərinin camaatı da özlərini Cəbrayılın nəslindən hesab edir.

Cəbrayıl igidləri hər zaman vətənpərvərlikləri ilə düşmənə qan uddurublar. Hələ II Dünya müharibəsində 4242 nəfər səfərbərliyə cəlb olunmuş, 1672 nəfər döyüşlərdə şəhid olmuşdur. Bu döyüşlərdə Cəmil Əhmədov, Mahmud İsmayılov, Balay Səfərov, Fərhad Fətəliyev, Bilal Əliyev, Şahı Hüseynov, Gürşad Şərifov, Dünyamalı Rüstəmov və bir çoxları böyük fədakarlıq göstərib canlarını Vətən yolunda sipər etdilər.

Cəbrayıl rayonu 8 avqust 1930-cu ildə yaranmış, işğaldan əvvəl ərazisi 1050 kvadratkilometr, 23 inzibati ərazi nümayəndəliyi olmaqla, 1 şəhər, 4 qəsəbə, 92 kənddən ibarət olmuşdur. Rayonun ərazisində çoxlu yazılı abidələr vardır ki, bunlardan da Ağoğlandakı Orxan yazılı abidəsi xüsusilə qiymətlidir. Əhali işğaldan əvvəl, əsasən, üzümçülük, heyvandarlıq, taxılçılıq, baramaçılıqla məşğul idi. Son illər 60 min tondan yuxarı üzüm istehsal olunurdu. Rayonda tikiş, xalça, cihazqayırma sexləri və müxtəlif sənaye obyektləri fəaliyyət göstərirdi. Elm, mədəniyyət bu torpaqda həmişə inkişaf edib. İşğaldan əvvəl rayonda 72 məktəb, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 78 kitabxana və sair fəaliyyət göstərirdi. Rayon tarix-diyarşünaslıq muzeyində 20 mindən yuxarı eksponat vardı. Rayonun tibb müəssisələrində 92 həkim, yetişməkdə olan nəslin təlim-tərbiyəsi ilə 1600-dən çox müəllim məşğul olurdu.

Cəbrayıl rayonu 1993-cü il avqust ayının 23-də əzəli və əbədi düşmənlərimizin tapdağı altına keçdi. 1050 kvadratkilometri əhatə edən 52000 nəfər əhalisi olan rayon ərazisi və bu ərazilərdə birlikdə 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 132 tarixi abidə, 150 mədəniyyət ocağı, 100-ə yaxın kənd büsbütün ermənilərin işğalına məruz qaldı, vəhşicəsinə dağıdıldı. Qarabağ müharibəsində 362 nəfər şəhid olmuş, 191 nəfər əlil olmuş, 90 nəfərə yaxın isə əsir və itkin düşmüşdür. Torpaqlarımızın müdafiəsi uğrunda şəhid olan 6 nəfər Şikar Aslanov, Kazım Məmmədov, Mətləb Quliyev və başqaları Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.



### Böyük Qayıdış Cocuq Mərcanlıdan başladı…

2016-cı il Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun əks-hücumu nəticəsində Lələtəpə yüksəkliyi düşməndən təmizlənib və Cocuq Mərcanlı kəndi Azərbaycan Ordusunun nəzarəti altına keçdikdən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 24 yanvar tarixli Sərəncamına əsasən işğaldan azad olunmuş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində 50 ev, 96 şagird yerlik məktəb və məscid tikilərək istifadəyə verilib. 30 may 2018-ci il tarixdən sakinlər kəndə köçürülüb. Cəmi 4 il sonra Cəbrayıl şəhəri və rayonun 90 kəndi Ermənistan işğalından azad olunmuşdur. Cəbrayıl rayonu üzərində Azərbaycanın suverenliyi bərqərar olmuş, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunmuşdur.



Müstəqil Azərbaycanımızın memarı dahi şəxsiyyət Heydər Əliyevin də dediyi kimi: ***“Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o yüksək dağları, çeşmələri, İstisuyu – biz onlarsız heç vaxt yaşaya bilmərik. Heç vaxt Azərbaycanı bu gözəl guşələrsiz təsəvvür edə bilmərik”.*** Bu gün o yolun sadiq davamçısı Müzəffər Ali Baş Komandan ata vəsiyyətinə sahib çıxdı, haqq səsini dünyaya çatdıraraq bildirdi.

44 gün ərzində Cəbrayıl şəhəri, rayonun 90 kəndi Ermənistan işğalından azad olundu. Həmin il noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Füzuli və Cəbrayıl şəhərlərində səfərdə oldu. Dövlətimizin başçısı Xudafərin körpüsü üzərində, Cəbrayıl şəhərində qalibiyyət rəmzi olan şanlı Azərbaycan Bayrağını yüksəkliklərə qaldırmaqla xalqımıza qürur və fəxarət dolu anlar yaşatdı. Bu səfər ermənilərin talan etdiyi Cəbrayılı bütün dünyaya erməni vandalizminin sübutu kimi sərgiləməklə də əhəmiyyət daşıdı.

2021-ci il fevralın 14-də dövlətimizin başçısı Cəbrayıl rayonuna növbəti səfəri zamanı kənd təsərrüfatı sahəsinin sürətli inkişafını diqqətdə saxlamış, 7 min hektarda əkin işləri aparılmışdır. Həmin il aprelin 26-da Cəbrayıl rayonuna yenidən səfər edən Prezident cənab İlham Əliyev rayonun girişində “Cəbrayıla xoş gəlmişsiniz!” lövhəsini bərpa etmiş, Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışında iştirak etmişdir.

2021-ci il oktyabrın 4-də Cəbrayılın işğaldan azad olunmasının birinci ildönümündə dövlət başçımızın növbəti səfəri zamanı Cəbrayılda “KamAZ” Açıq Səhmdar Cəmiyyəti ilə “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin birgə servis mərkəzinin, Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının, Cəbrayıl rayon Mərkəzi Xəstəxanasının, məktəb binasının və Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin, Cəbrayıl Memorial Kompleksinin və Cəbrayıl şəhərinin bərpasının təməl daşını qoydu. Ölkə başçısı 110/35/10 kilovoltluq “Cəbrayıl” yarımstansiyasının, Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışında iştirak etdi. Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşən Prezident cənab İlham Əliyev bu görüşün xüsusi məna daşıdığını bildirərək dedi: ***“Oktyabrın 4-ü bizim tariximizdə əbədi qalacaq. Çünki oktyabrın 4-də Cəbrayıl şəhəri işğalçılardan azad edildi və bu Qələbənin çox böyük mənası var idi. Çünki ilk dəfə olaraq müharibənin birinci həftəsində şəhər, rayon mərkəzi azad edilmişdi. Bu, bizim Ordumuza əlavə güc verdi, inam verdi. Bu Qələbədən sonra bizim şanlı Ordumuz öz tarixi missiyasını digər yerlərdə də icra etmişdir…biz düşmənin müdafiə xəttini məhz bu istiqamətdə yara bilmişik”.***

2022-ci il mayın 26-da ölkə başçısı cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonuna səfər edərək Soltanlı stansiyasının, “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin 330/110 kilovoltluq “Cəbrayıl” enerji qovşağının



təməlqoyma mərasimində iştirak etdilər. Dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, Cəbrayıl-Naxçıvan-Ağrı (Türkiyə) yarımstansiyalarına, oradan isə Türkiyə enerji sistemi vasitəsilə Avropa enerji bazarlarına əlavə və daha əlverişli çıxış əldə etmək, 1000 meqavat yükötürmə qabiliyyətinə malik olmaqla ixrac imkanlarını artırmaq, uzun illərdən sonra Naxçıvan Muxtar Respublikasını Azərbaycanın ümumi enerji sisteminə qoşmaq, “Xudafərin” və “Qız Qalası” Su Elektrik stansiyalarının, o cümlədən “BP Cəbrayıl” Günəş Elektrik Stansiyasının enerji sistemə inteqrasiyasını həyata keçirmək üçün 330 kilovoltluq “Cəbrayıl” yarımstansiyasının tikilməsi olduqca əhəmiyyətli hadisədir.“Cəbrayıl” enerji qovşağı beynəlxalq enerji dəhlizinin yaradılması sahəsində ölkəmizin əhəmiyyətinin bariz nümunəsidir.

Prezident cənab İlham Əliyevin sentyabrın 28-də Cəbrayıl və Zəngilan rayonlarına səfəri çərçivəsində Cəbrayıl şəhərində inzibati binanın təməlinin qoyulması, burada inşa edilən ilk yaşayış məhəlləsi – 718 mənzildən ibarət Cəbrayıl Yaşayış Kompleksində aparılan tikinti işləri ilə tanışlıq, ümumilikdə, 1833 mənzildən ibarət olması nəzərdə tutulan Şirvan, Lənkəran və Yevlax Yaşayış kompleksləri, bundan başqa, 960 şagird yerlik orta məktəb binası və 80 yerlik uşaq bağçasının da tikilməsi üçün görülən işlər, “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin istifadəyə verilməsi Azərbaycanın öz halal torpaqlarına sahib çıxmaq qüdrəti və siyasi iradəsi olmaqla yanaşı, həm də doğma Qarabağımız uğrunda canından keçərək şəhidlik məqamına yüksəlmiş qəhrəman Vətən oğullarımızın xatirəsinə ən böyük ehtiramdır

*Ey ulu yurdumuz, Cəbrayıl! Sən Aşıq Qurbaninin, Humayın, Kərimin keçmiş sazısan! Dilləndirsən susmayan, ürəklərə söz doldurub, köz vuran Dədəm Qorqudun ayaq izi, irs qaynağı, saz yolusan! Azərbaycanın tarix adlı kitabında qayıdışın simvolusan! Qayıdışına qurban olan minlərlə cansan! Hər şeyin başlanğıcı, unudulmazı, əbədi iz yolusan! Azərbaycan təki sən qayıdasan deyə ər kimi meydanlara doldu-daşdı! Sənin torpağın biləklərdə güc, dizlərdə taqət olub axıbdaşdı:* ***“Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”***

**Fariz ƏHMƏDOV**

## *“Vətəndən pay olmaz”* adlı tədbir keçirilib

*Əlahiddə Ümumqoşun Ordunun mətbuat xidmətindən verilən məlumata görə tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi yad edilib, Dövlət Himnimiz səsləndirilib.*

Heydər Əliyev adına Hərbi Liseyin rəisi, polkovnik Elşad Həsənov, şəhid valideynləri və Vətən müharibəsi iştirakçıları çıxış edərək



Azərbaycan Ordusunun rəşadətindən, torpaqlarımızın bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalanların şərəfli ömür və döyüş yolundan, 2023-cü ildə lokal xarakterli antiterror tədbirlərində ordumuzun düşmən üzərində parlaq qələbə qazanmasından danışıblar.

Qeyd olunub ki, işğal altındakı torpaqlarımızın azad edilməsi uğrunda canlarını fəda edərək qəhrəmancasına şəhid olan zabitlərimizin arasında Heydər Əliyev adına Hərbi Liseyin onlarla məzunu var. Torpaqlarımızın azadlığı uğrunda canlarından keçərək şəhid olan hərbi liseyin məzunlarının Vətən naminə göstərdikləri qəhrəmanlıqların bugünkü kursantlar üçün bir igidlik, əsl vətənpərvərlik nümunəsi olduğu diqqətə çatdırılıb.

Şəhid valideynləri göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərin xatirəsini daim uca tutduğuna görə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda ordumuzun qüdrətindən bəhs edən və şəhidlərimizə həsr olunmuş videoçarxlar nümayiş olunub, kursantlar və şəhid övladları vətənpərvər mövzuda şeirlər bədii qiraət ediblər.

**Xəbərlər şöbəsi**

Tarixi Azərbaycan torpaqları

# Qərbi Azərbaycan qayaüstü təsvirlərində qədim türk mədəniyyətinin izi

*Qayaüstü təsvirlər qədim maddi mədəniyyət nümunələrimiz içərisində çox maraqlı və elmi əhəmiyyət daşıyan artefaktlardandır. Onlar ibtidai incəsənət nümunələri olmaqla yanaşı, ulu əcdadlarımızın məişət və təsərrüfatını, dini-ideoloji görüşlərini, maddi və mənəvi mədəniyyətini əks etdirir. Qayaüstü rəsmlərə Yer kürəsinin müxtəlif yerlərində rast gəlmək olur. Pamir və Tyan-Şan dağlarında, İspaniya və Skandinaviyada, Kareliyada, Sibirdə, Orta Asiyada, Altayda, Saxara səhrasında və digər yerlərdə qayaüstü təsvirlər var. Cənubi Qafqaz ərazisində qədim qayaüstü rəsmlərin ilk nümunələri respublikamızın Qobustan ərazisində tapılmışdı. Qobustanla yanaşı, Kəlbəcərdə, Naxçıvandakı Gəmiqaya, Qərbi Azərbaycandakı Soyuqbulaq, Qarakilsə ərazilərində də qayaüstü təsvirlər vardır.*

Qərbi Azərbaycandakı Qarakilsə rayonu ərazisində qeydə alınmış qayaüstü təsvirlər xronoloji cəhətdən iki qrupa ayrılır. Birinci qrup təsvirlər eramızdan əvvəl V-IV minilliklərə, ikinci qrup təsvirlər isə eramızdan əvvəl III-II minilliklərə aiddir. Soyuqbulaq qayaüstü təsvirləri eyniadlı kəndin yaxınlığındakı, Armudlu və Qaçaqqırılan dərələrində qeydə alınmışdır. Onlarda insanların məişət və təsərrüfat həyatı, bədii estetik düşüncə tərzi, dini ideoloji görüşləri ilə bağlı müxtəlif süjetlər əks olunduğu üçün maddi və mənəvi mədəniyyətimizi öyrənmək baxımından mühüm elmi əhəmiyyət daşıyır. Onlar mövzu rəngarəngliyi, zəngin süjetləri və böyük bədii dəyəri ilə diqqəti cəlb edir. Qərbi Azərbaycan ərazisində belə qayaüstü təsvirlərdən birini Qarakilsədəki iribuynuzlu heyvana qoşulmuş, ətrafında insanlar olan dördtəkərli araba rəsmi təşkil edir. Bu tip təsvirlərə Naxçıvanda Gəmiqaya abidəsində də rast gəlmək olur. Hər iki abidədən aşkar olunmuş araba təsvirləri insanların məişət və təsərrüfat həyatını öyrənməklə yanaşı, arabadan istifadə edilmə mədəniyyəti də öyrənilmək baxımından mühüm elmi əhəmiyyət daşıyır.


1-Qarakilsə, 2,3-Gəmiqaya

Qeyd olunan məsələ ilə bağlı araşdırma apararkən məlum olur ki, bu tip təsvirlərin “Bir heyvan qoşma mədəniyyəti”, “Atlı araba mədəniyyəti” ilə bağlı olması haqqında mənbələrdə müxtəlif məlumatlar var. Tədqiqatçılardan F.Ağasıoğlu, N.Müseyibli, B.Tuncay, V.G.Childe, T.S.Piggott, Y.A.Şervda, A.Speiser və J.Qavrada, L.Volley və digərləri araşdırma apararaq müxtəlif fikirlər irəli sürmüşlər. N.Müseyibli Azərbaycanın Eneolit dövrü abidələrindən (Leylatəpə, Böyük Kəsik, Qalayeri, II Poylu, Polutəpə) aşkar edilmiş gil təkər modellərinə əsaslanaraq arabadan istifadə edilmə mədəniyyətinin hind-Avropa arealından Qafqaza yayılması haqqında fikirlərin heç bir elmi əsasının olmadığını qeyd etmişdir. A.Spenser və J.Qavrada apardıqları tədqiqatlar zamanı əldə olunmuş arxeoloji materiallara istinad edərək təkərin, arabanın ilk dəfə eramızdan əvvəl 5000-ci ildə Mesopotamiyada (İkiçayarasında) icad edildiyini qeyd etmişlər. A.Speiser və J.Qavradanya yanaşı, L.Volley də bu istiqamətdə tədqiqat aparmışdır. A.Speiser və J.Qavrada, L.Volley apardıqları tədqiqatlar nəticəsində qeyd etmişlər ki, arabalar əvvəlcə ikitəkərli, sonra isə dördtəkərli düzəldilmişdir. Şumerlər arabanı “kağnı” adlandırmışlar. Ondan eramızdan əvvəl 3500-cü ildə, əsasən, yük daşımaq üçün istifadə etmişlər. Eramızdan əvvəl 2500-cü ildə isə ikitəkərli araba dördtəkərli araba ilə əvəz olunmuşdur. E.Emel qeyd etmişdir ki, hunlar təkərli arabalar düzəltmişlər. Bu təkərli, çadırlı arabalardan istifadə onlar üçün əlverişli olmuşdur.

Çinli tarixçi Sui Beihayi Tanrı, Altay dağlarında, Monqolustanda, Şərqi və Qərbi Türküstandakı abidələrdən aşkar olunmuş arabaların hun mədəniyyətinə aid olduğunu, eramızdan əvvəl 2000-800-cü illərdə arabanın türklər tərəfindən geniş istifadə edildiyini qeyd etmişdir. Sui Beihayi fikri ilə bağlılıq təşkil edən məlumat F.Rəşidəddinin “Oğuznamə”sində, Göytürk kitabələrində də vardır. F.Rəşidəddinin “Oğuznamə”sində qeyd olunan məlumat belə əks olunmuşdur: “... digər bir qövm də, düşmənləri yağma edib qənimət (olcay) yığdıqlarından, heyvanlar bunları daşımaq üçün gəlib çatmadığından “qanqlı”lar düzəltdilər. Bundan əvvəl təkərlər yox idi. Arabanı ilk dəfə bunlar düzəltdilər. Əşyaları, yükləri və qənimətləri bunun üzərinə qoyaraq daşıdılar, getdilər. Oğuz bu səbəbdən onlara “qanqlı”, “yəni arabaçılar” adını verdi”.

Mənbələrdə olan məlumatları və tədqiqatçıların fikirlərini müqayisəli şəkildə öyrənərək sonda belə bir nəticəyə gəlmək olar ki, bu təsvir insanların məişət və təsərrüfat həyatını öyrənməklə yanaşı, türk mədəniyyətində özünəməxsus yer tutan “Araba mədəniyyəti” ilə bağlılıq təşkil edərək bu mədəniyyətin Qərbi Azərbaycanı da əhatə etdiyini, bu ərazinin qədim oğuz, türk yurdu olduğunu sübut edir.

**Toğrul XƏLİLOV**
***tarix üzrə fəlsəfə doktoru, dosent***

# Universitet müəllimləri IBM üzrə “SkillsBuild for Academia” proqramına qoşulublar



Naxçıvan Dövlət Universiteti ilə IBM arasında imzalanan əməkdaşlıq müqaviləsinə əsasən bu sahə üzrə seçilən müəllimlər “SkillsBuild for Academia” proqramına qoşulublar. Proqrama hazırlığın vəziyyətinə dair ali təhsil ocağında görüş keçirilib.

Universitetin rektoru Elbrus İsayev müəllimlərin bu istiqamətdə qoşulacağı təlimlərin əhəmiyyətini diqqətə çatdırıb. Rektor qeyd edib ki, bu istiqamətdə həyata keçirilən təlim və tədris proqramları texnologiya sahəsində təhsil proqramlarını dəstəkləyərək və təmin edərək tələbələrin və tədqiqatçıların hazırlığına təkan verir, tədqiqat sahəsində universitetlərlə beynəlxalq əməkdaşlıq sahələri texnologiyaların inkişafına kömək edir. Rektor IBM üzrə seçilən müəllimlərin gələcəkdə ali təhsil ocağında qurulan Texnoparkın fəaliyyət istiqamətində mühüm töhfələr verəcəyini önə çəkib.

Qeyd edək ki, IBM dünya səviyyəli informasiya texnologiyaları və xidmətlər sahəsində liderdir. Bu əməkdaşlıqların məqsədi texnologiya sahəsində peşəkar kadrlar yetişdirmək və müstəqil tədqiqat və inkişafı dəstəkləməkdir.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Məhəmməd Zeynalov: “Məqsədimiz torpağın strukturunun pozulmasına, məhsuldarlığın aşağı düşməsinə səbəb olan amilləri aradan qaldırmaqdır”



Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin 2023-cü il 10 may tarixli əmri ilə muxtar respublika ərazisində bitkiçilik, heyvandarlıq, arıçılıq, quşçuluq və digər bu kimi təsərrüfatların diaqnostikasının aparılması və epizootik, fitosanitar vəziyyətlər də daxil olmaqla mövcud vəziyyətin qiymətləndirilməsi üçün Kənd Təsərrüfatı, Səhiyyə, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, rayon (şəhər) icra hakimiyyəti orqanlarının əməkdaşlarından ibarət 8 işçi qrupu yaradılıb, müvafiq tədbirlər görülüb. Həyata keçirilən monitorinqlərin yekun nəticələri ilə bağlı Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri ***Məhəmməd Zeynalov*** “Şərq qapısı” qəzetinə müsahibə verib. Həmin müsahibəni oxucularımıza təqdim edirik: – Cari ilin may ayından etibarən müvafiq əmrə uyğun aidiyyəti dövlət təşkilatları əməkdaşlarından ibarət yaradılan işçi qrupu tərəfindən muxtar respublika ərazisində bitkiçilik, heyvandarlıq, arıçılıq, quşçuluq təsərrüfatlarında fitosanitar və epizootik monitorinqlər aparılıb. Həmçinin bu monitorinqlər qeyd etdiyim sahələrdə mövcud vəziyyətin qiymətləndirilməsi və təsərrüfatların diaqnostikasının aparılması ilə bağlı həyata keçirilib. Epizootik monitorinqlər zamanı heyvandarlıq təsərrüfatlarında



itigedişli infeksion xəstəliklərin baş vermədiyi məlum olub və işçi qrupu tərəfindən iribuynuzlu heyvanlar arasında qarayara, nodulyar dermatit, dabaq və pasterellyoz xəstəliklərinə qarşı, xırdabuynuzlu heyvanlar arasında qarayara, qabaq və bradzot xəstəliklərinə qarşı, təkdırnaqlı heyvanlarda qarayara və sahibli itlər arasında quduzluq xəstəliklərinə qarşı profilaktiki peyvəndləmə tədbirləri aparılıb. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Məhəmməd Zeynalov qeyd edib ki, fitosanitar monitorinqlər zamanı, ümumilikdə, 47001 bitkiçilik təsərrüfatı sahəsinə baxış keçirilib və əkin sahələrində karantin tətbiq edilməyən zərərli orqanizmlərə və bitki xəstəliklərinə, həmçinin alaq otlarına rast gəlinib. Eyni zamanda müxtəlif növ meyvə ağaclarında, bostan və tərəvəz bitkilərində unlu şeh, dəmgil, xloroz, yarpaq yanıqlığı, moniliyoz,



antraknoz, pas xəstəlikləri, kif xəstəliyi, bakterial ləkə, bakterial yanıq, yarpaq qıvrılması, qara xərçəng, üzümdə mildium və oidium xəstəlikləri müşahidə edilib. Simptomlu bitki hissələrindən laborator analizlərin aparılması məqsədilə nümunələr götürülüb. Laborator analizlərin nəticələrinə əsasən karantin tətbiq edilən zərərli orqanizmlərə rast gəlinməyib. Fitosanitar vəziyyətin qiymətləndirilməsi ilə yanaşı, muxtar respublikanın şəhər və rayonlarında əkini həyata keçirilən bitki və bitkiçilik məhsullarının becərilməsində yaranmış problemlər də aşkar edilib. Belə ki, suvarma suyunun çatışmazlığı, bəzi ərazilərdə suvarma kanallarının və artezian qurğularının köhnəlməsi səbəbindən su itkilərinə yol verilir. Qeyd olunan hallar isə su mənbələrindən uzaq ərazilərdə olan bitkilərin vegetasiya dövründə suvarılmasında müəyyən çətinliklər yaradır. Həmçinin bitki və bitkiçilik məhsullarının əkilib-becərilməsində çalışan şəxslərin qeyri-ixtisas sahibi olmaları səbəbindən bitkilərə düzgün qulluq edilməməsi, o cümlədən pestisidlər və aqrokimyəvi maddələrdən norma və qaydalarla işlənilməməsi torpağın strukturunun pozulmasına və məhsuldarlığın aşağı düşməsinə səbəb olur. Monitorinq zamanı aşkar edilmiş xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirləri ilə bağlı işçi qrupu tərəfindən təsərrüfat sahiblərinə müvafiq tapşırıq və tövsiyələr verilib. Həmçinin pestisid və aqrokimyəvi maddələrdən düzgün və təhlükəsiz istifadə qaydaları, normadan artıq istifadənin məhsuldarlığa və insan orqanizminə təsirləri barədə maarifləndirici söhbətlər aparılıb.

✍ **Nail ƏSGƏROV**

# Yaradıcı kollektiv Gəncə şəhərində tamaşa nümayiş etdirib



Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı fransız yazıçısı Viktor Hüqonun “Edama məhkumun son günü” əsərinin motivləri əsasında səhnələşdirilən eyniadlı tamaşanı Gəncə Dövlət Dram Teatrında nümayiş etdirib.

Tamaşanın quruluşçu rejissoru və musiqi tərtibatçısı Mir Qabil Əkbərov, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, xoreoqrafı Lamiyə Əliyevadır. Psixoloji dram janrında olan səhnə əsərində rolları Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyev, gənc aktyorlar Mehri Nəbiyeva və Məmməd Mehdiyev oynayıblar.

Tamaşa Gəncə teatrsevərləri tərəfindən alqışlarla qarşılanıb.

Qeyd edək ki, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Ümummilli Lider Heydər Əliyevin 100, Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyinə həsr edilmiş silsilə tədbirləri çərçivəsində Naxçıvan teatrının regionlara təşkil olunan qastrol səfərləri davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Məktəbəhazırlıq qruplarında məşğələlərə başlanılıb



2023-2024-cü tədris ilində muxtar respublikanın ümumtəhsil məktəblərinə 2597 uşaq məktəbəhazırlıq qruplarına qəbul olunub və bu gündən məşğələlərə başlanılıb. Bu qruplara qəbul üçün qeydiyyat *mektebeqebul.edu.az* elektron sistemi üzərindən həyata keçirilib. Dövlət ümumtəhsil məktəblərində yaradılmış məktəbəhazırlıq qruplarına 5 yaşı həmin il tamam olmuş uşaqlar qəbul olunublar. Azərbaycan bölməsi üzrə məktəb və müəllim seçimi 11 avqustdan, tədrisi digər dillərdə aparılan bölmələr üzrə məktəb və müəllim seçimi isə 15 avqustdan aktiv edilib. Muxtar respublikanın ümumtəhsil məktəblərinə 168 sinif kompleksində 2597 uşaq qeydiyyatdan keçib ki, onların 1449-u oğlan, 1148-i isə qızdır.

Məktəbəhazırlıq qrupları üçün kənd məktəblərində 8-10 arası, şəhər və qəsəbələrdə isə 15-dən artıq uşaq olan məktəblər seçilib. Qruplarda gün ərzində 3 məşğələ olmaqla həftədə 4 gün cəmi 12 məşğələ keçiriləcək. Bir məşğələnin müddəti 30 dəqiqə, məşğələlərarası fasilə 10 dəqiqə olacaq.

Məktəbəhazırlıq qruplarında ətraf aləmlə tanışlıq, savad təliminə hazırlıq və nitq inkişafı, bədii təfəkkürün inkişafı, məntiqi və riyazi təfəkkürün inkişafı, təsviri fəaliyyət, musiqi, fiziki mədəniyyət məşğələləri keçirilir. Dərs ili iki yarımilə bölünür və mayın 31-də başa çatacaq.

Qeyd edək ki, məktəbəhazırlıq qruplarının yaradılmasında məqsəd 5 yaşlı uşaqların məktəb təliminə hazırlığı ilə əlaqədar psixoloji dayanıqlığını artırmaq, ünsiyyət və birgə fəaliyyət bacarıqlarına yiyələnməsini təmin etmək, onları əhatə olunduqları aləmə və təhsil mühitinə uyğunlaşdırmaqdır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şahbuz rayonu, Gömür kəndində Şahquliyev Nizami Misir oğlunun adına verilmiş JN-152A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 589